MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ ALTERNATİV MODELLƏRİN TƏTBİQİNƏ BAŞLANILIR

Məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, müxtəlif səbəblərdən məktəbəqədər təhsillə əhatə oluna bilməyən uşaqların cəlb edilməsi Elm və Təhsil Nazirliyinin əsas strateji hədəflərindəndir. Bu məqsədlə nazirlik tərəfindən alternativ modellərin tətbiqi nəzərdə tutulur. İlk dəfə həyata keçirilən "Alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili" pilot qrant proqramı da həmin istiqamətdə görülən işlərdən biridir.

Qeyd edilən proqrama 19 layihə təqdim edilib və onlardan 16-sı qrant qazanıb. Qrant qazanmış layihələr Bakı, Naxçıvan, Astara, Füzuli, Göygöl, Lənkəran, Masallı, Şəki, Şirvan, Zaqatala üzrə olmaqla ümumilikdə 16 rayon və şəhəri əhatə edir.

İl ərzində həyata keçiriləcək layihələrin əsas benefisiarları müxtəlif səbəblərdən məktəbəqədər təhsillə əhatə oluna bilməyən uşaqlardır. Layihələr çərçivəsində uşaqların alternativ təhsil modellərinin köməyi ilə məktəbəqədər təhsilə cəlb edilməsi təmin olunacaq.

Müsabiqənin yekunlarını əks etdirən cədvəllə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür.

TƏHSİL MÜƏSSİSƏSİNDƏ AŞKAR EDİLMİŞ MƏNİMSƏMƏ FAKTI İLƏ BAĞLI CİNAYƏT İŞİ BAŞLANIB

Mingəçevir şəhər prokurorluğundan redaksiyaya daxil olmuş məlumatda bildirilir ki, Mingəçevir şəhər 4 saylı tam orta məktəbdə baş verən qanunsuzluqlarla bağlı daxil olmuş vətəndaş müraciəti əsasında şəhər prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı Azər Qazıyevin qeyd edilən təhsil müəssisəsində direktor vəzifəsini icra etdiyi 2020-2023-cü illər ərzində məktəbdə texniki vəzifədə çalışan, işə davamiyyəti olmayan işçilərə əməkhaqqı ödənilməsi yolu ilə 26 min manatdan artıq dövlət vəsaitini mənimsəməsi və israf etməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Mingəçevir şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 179.2.3 və 179.2.4-cü (qulluq mövqeyindən istifadə etməklə və xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə) maddələrilə cinayət işi başlanaraq istintaq aparılır.

Aİ RUSİYAYA QARŞI YENİ SANKSİYALAR HAZIRLAYIR

Avropa İttifaqı Rusiyaya qarşı 13-cü sanksiyalar paketinin müzakirəsinə başlayıb.

Trend xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi mənbələrə istinadən məlumat yayıb.

Bildirilib ki, fevralın 24-də təsdiqlənəcəyi gözlənilən yeni sanksiyalar paketi yeni ticari məhdudiyyətləri və genişlənmiş sanksiyalar siyahısını əhatə edəcək.

Qeyd olunub ki, Aİ ölkələrinin səfirlərinin görüşündə, həmçinin, sanksiyalardan yayınma ilə mübarizə tədbirləri müzakirə edilib.

SƏRHƏDDƏ GÖZLƏYƏN YÜK MAŞINLARININ SAYI AÇIQLANDI

Azərbaycan-Gürcüstan sərhədində yerləşən "Qırmızı Körpü" gömrük postunda 640 yük maşını gözləmədədir.

Bu barədə Trend-ə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) məlumat verilib.

Bildirilir ki, "Biləsuvar" gömrük postunda 38, Astara gömrük postunda 18, "Mazımqara" gömrük postunda 14, "Samur" gömrük postunda 45 və "Xanoba" gömrük postunda beş yük maşını var.

"ŞİZİK" HAQQINDA BALLADA - YAXUD HƏBİB ZƏRBƏLİYEV İNDİ NƏ DÜŞÜNÜR?!

HƏBİB VƏ EŞŞƏK

(Əvvəli səh 1-də)

Görəsən iki ildən artıq Azərbaycanın tanınmış təhsil ocağı barədə hədyanlar yazan, yazdıqlarını heç özü də dərk etməyən bir şəxsə ziyalı demək olarmı? Olarsa, buyurun fikirlərimə şərhlərinizi verin ki, "bəlkə mən düz eləmirəm", başqa hansı formada edim ki, onun xoşuna gəlsin?

Sosial şəbəkələrin bolluğu anarxistlər üçün geniş məkana çevrilib. Cəmiyyətdə pozuculuq, xaos belə sərsəm düşüncəli insanların əlində alətə çevrilib. Başqalarını deyə bilmərəm, şəxsən özüm tanıdığım üçün deyirəm, feysbuk sosial şəbəkəsində bir neçə profili ilə ölkə ziyalıları arasında kifayət qədər nüfuza malik insanları təhqir və tənqid atəşinə tutan indoneziyaşünas kimi cəmiyyətə soxulan hoqqabaz professor Həbib Zərbəliyev sadaladıqlarımdan deyil, çünki Həbib Zərbəliyev bunlara da sığmır.İşlədiyi yerlərdə daima kollektivdə intriqabazlıq, xaos yaratmağa çalışan, əxlaqi cəhətdən geri zəkalı birisi kimi artıq tanınan bu "ziyalı", professor əsl həqiqətdə tam korlanıb. Onu belə kim korlayıb, necə korlayıb özü bilər, ancaq əsassız yerə təhqir və tənqid etdiyi böyük təhsil ocağında -Azərbayca Dillər Universitetində özünün doğma qızı mərkəz rəhbəri kimi çalışır. Yəni, orada baş verənlər, Həbib Zərbəliyevin təbirincə desək, nöqsanların iştirakçılarından biri də öz qızıdır. Bu əxlaqi düşüncəyə malik vücuddan soruşmaq yerinə düşər ki, ay əbləh, niyə bu təhsil ocağında işlədiyin illər ərzində belə yazılar yazmırdın, kollektiv həmin kollektiv, rektor həmin rektor. İndi dəyişən nədir? Yaldan tez-tez yazırsan, anlaşıldı, yəqin yalın kəsilib! Bunu əvvəlki yazılarımda qeyd etmişdim. Çifayda. Qanmadın.

Bildirim ki, hər iki tərəfi dinləmişəm, hətta görüşümüzdə hər iki tərəfin hörmətlə yanaşdığı ziyalılar, ölkənin tanınmış dilçi alimləri, professorlar iştirak edib, faktlar əsassız olduğundan Həbib Zərbəliyev səhvlərini başa düşərək üzərində çalışacağına söz verib, özünü islah edib cəmiyyətin ziyalı təbəqəsinə qoşulacağına vəd verib. Qarşı tərəf Həbibin səmimi olacağına inanmasa da, onun dediklərinə bizə münasibətdə hörmətlə yanaşacağına söz verib. Amma neyləmək olar ki, Həbib öhdəlik götürdüklərinin əlindən qopa bilmir. Şizofreniyadan əziyyət çəkən şəxslər kimi. Belə düşünürəm ki, bu şəxsi diqqətlə müayinə etmək yerinə düşər. Bəlkə həkimlərin ona faydası dəydi. Əks halda dünən bir alimdən, bu gün bir dövlət məmurundan, sabah ölkə rəhbərindən cər-cəfəgiyyatlar yazmağa vərdiş alan professor haqqında biz "Şizik" balladasını yazmağa məcbur qalacağıq.

Davamından Allah qorusun!

Füzuli Əfqanoğlu

MƏRKƏZİ ARAN REGİONAL TƏHSİL İDARƏSİNİN RƏSMİ AÇIQLAMASI

Ötən gün kütləvi informasiya vasitələrində Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbin direktoru Azər Qazıyevin müəllimlərdən dərs saatlarına görə rüşvət alması barədə görüntüləri əks etdirən məlumat yayımlanmışdır.

Bildiririk ki, Mərkəzi Aran Regional Təhsil İdarəsi tərəfindən 13-14 noyabr 2023-cü il tarixlərində Mingəçevir şəhər 4 nömrəli tam orta məktəbdə təlim-tədris prosesində baş vermiş neqativ hallarla bağlı yoxlama aparılmış və sözügedən məsələ ilə bağlı yanaşı olaraq Mingəçevir şəhər Prokurorluğu, həmçinin Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Maliyyə Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən yoxlamalara başlanılmışdır. Aparılmış yoxlamaların nəticələrinə və eləcə də Mingəçevir şəhər Prokurorluğunun şifahi məlumatına əsasən, Mingəçevir şəhər Prokurorluğunda cinayət işi açılmış və hazırda iş üzrə istintaq davam edir. Araşdırmanın nəticəsi bitdikdən sonra, qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq addımlar atılacaqdır.

Mərkəzi Aran Regional Təhsil İdarəsi təhsil müəssisələrində korrupsiya ilə əlaqədar hüquqpozmaların baş verməsini pisləyir, bunun qarşısının alınması və aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görür.

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
MƏRKƏZİ ARAN
REGİONAL TƏHSİL İDARƏSİ

Ərdoğan: "Türkiyə öz döyüş gəmilərini istehsal edən on ölkə arasındadır"

Bu sözləri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yeni gəmi platformalarının Türkiyə Silahlı Qüvvələrinin inventarına daxil edilməsi mərasimində çıxışı zamanı deyib.

"Təhvil verilən hər bir gəmi dəniz qüvvələrimizin gücünə daha da güc qatacaq. "TCG Derya" "TCG Anadolu"dan sonra ən böyük gəmidir. "TCG Derya"nın xidmətə başlaması ilə yüzdə birlik hissələrinin yanacaq və su təchizatı sürətlə tamamlanacaq, əməliyyat bölgəsinə yaxın bölgələrdə döyüş elementlərinin yanacaq tədarükü və su ehtiyacları asanlıqla ödəniləcək", - deyə o vurğulayıb.

Ərdoğan onu da bildirib ki, Türkiyə pilotsuz uçuş aparatları və dronların istehsalında isə dünyada ilk üçdörd ölkədən biridir.

"2023-cü ildə 185 ölkəyə 230 adda müdafiə sənayesi məhsulu satmaqla ümumi ixracat həcmi 5,5 milyard dollara çatıb. Həmçinin, bu müddət ərzində 10 milyard 240 milyon dollar dəyərində yeni müqavilə imzalanıb. Ölkəmiz öz döyüş gəmisini dizayn və inşa edə bilən on ölkə arasındadır. Biz buna böyük dövlətlərin dəstəyi ilə deyil, qlobal təchizatçıların yaratdığı çətinliklərə, onların həyata keçirdikləri gizli və açıq embarqolara baxmayaraq nail olduq", - deyə o qeyd edib.

Qeyd edək ki, bu gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyə Silahlı Qüvvələrinin ikinci ən böyük gəmisi "TCG Derya" inventara daxil edilib.

PAYTAXTDA MƏRASİM EVİNİN TAVANI ÇÖKDÜ: XƏSARƏT ALANLAR VAR

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Yasamal rayonu, Mikayıl Müşfiq küçəsində mərasim zalının tavanının uçması barədə ilkin məlumat daxil olub.

FHN-dən verilən xəbərə görə, məlumatla əlaqədar dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri əraziyə cəlb olunub.

Əməliyyat şəraiti qiymətləndirilərkən, ikimərtəbəli mərasim evinin 1-ci mərtəbəsinin tavanının uçduğu müəyyən olunub.

Hadisə nəticəsində üç nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

FHN-in qüvvələri tərəfindən ərazidə müvafiq təhlükəsizlik tədbirləri görülüb.

Hadisə ilə bağlı araşdırma aparılır.

ELM VƏ TƏHSİL NAZİRLİYİNİN TABELİYİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN İNSTİTUTLARIN UĞURU

2019-2023-cü illərdə "Scopus" elmmetrik bazasında indekslənən jurnallarda elmi işləri dərc olunan ilk 5 institutun göstəricilərini təqdim edirik. Qeyd edək ki, ölkə üzrə ilk 5-liyə daxil olan institutlar Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

Qrafikə əsasən son 5 il üzrə ən yüksək nəticə 549 elmi işlə Riyaziyyat və Mexanika İnstitutuna aiddir.

2023-cü ildə nəşr olunan elmi işlərin sayına görə isə İdarəetmə Sistemləri İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu və Fizika İnstitutu ilk üçlükdə təmsil olunur.

Təsisçi: Füzuli İsmayılov və redaksiyanın jurnalist kollektivi

İdeya rəhbəri: Loğman Rəşidzadə

Baş redaktor: Füzuli Əfqanoğlu

Redaktor: Şəfi Əhmədov

Məsul əməkdaşlar: Telman Bağırov, Elvin İsmayılzadə, Mehriban İsmayılzadə, Dəyanət Kərimov

REDAKSİYA HEYƏTİ: Eldar Quliyev (Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili), Çingiz Bəşirov (alim-hüquqşünas), İlham Həsənov (professor, tarixçi-alim), Altay Mehdiyev (hərbi ekspert, ehtiyatda olan general-mayor), Məmməd Musayev (iqtisadçı-alim), Loğman Rəşidzadə (yazıçı pulisist, filoloq-alim), Süleyman Rəhmanov (nəqliyyat üzrə ekspert, təqaüddə olan polis zabiti), Əşrəf Qafarov (həkim-cərrah), Əflan İbrahimov (siyasətçi), Nadir İsrafilov (təhsil üzrə ekspert, İctimai Şuranın üzvü), Ali Akbar (Pakistanlı iş adamı)

Bank rekvizitlərimiz: Kapital Bank ASC-nin Nəsimi rayon filialı "Hakimiyyət" qəzeti VÖEN 1400875811 Hesab № AZ67AIIB40060019440409430111

Qəzet 1994-cü ildə Mətbuat və İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınaraq, 173-saylı şəhadətnamə ilə fəaliyyət göstərir
Qəzet redaksiyanın "Jalə" kompüter mərkəzində yığılaraq "Son dəqiqə" mətbəəsində çap olunub.

Tiraj: 1550

Ünvan: Bakı, Azadlıq pr. 161 B
Telefon: (050) 680-99-76
E-mail: *hakimiyyet@gmail.com*
hakimiyyet.tv@gmail.com

Bizi sosial şəbəkələrdə izləyin:
Facebookda: Hakimiyyət qəzeti,
İnstaqramda: Hakimiyyət Qəzeti
Youtube-da: Hakimiyyet TV
Tvitterdə: HakimiyyetC